Azərbaycan mətbuatı - 150 il:

sözün zəfər və məşəqqət yolu

Azərbaycan mətbuatı 150 illik yol keçib - bu təkcə qəzet səhifələrindən, çap olunmuş məqalələrdən, redaksiya otaqlarında yanan işıqlardan ibarət olmayıb. Bu yol həm də zindan divarlarına çırpılmış üsyankar qələmlərin, senzuraya qarşı dirəniş göstərən aydınların, söz azadlığı uğrunda şəhid olan qələm sahiblərinin yoludur. Bu gün də söz sənətini yaşadan, jurnalistikamızın daha da təkmilləşməsi üçün çalışan aparıcı media nümayəndələrimiz var ki, onlar keçmiş və gələcək nəsillər arasında körpü rolunu oynayaraq, ən gin bilik və bacarıqları sayəsində milli mətbuatımızın sarsılmaz sütunlarına çevriliblər.

Milli mətbuatımız bu illərdə dövrün mütərəqqi fikirlərini əks etdirib, cəmiyyəti düşündürən məsələləri ictimai müzakirəyə çıxarıb, milli-mənəvi dəyərlərin təbliğində, insanların maariflənməsi və milli şüurun formalaşmasında, xalqımızın müstəqillik arzularının gerçəkləşməsində mühüm rol oynayıb. Hazırda milli jurnalistika yeni inkişaf mərhələsinə qədəm qoyub.

Əməkdaşlarımızın qələmə aldığı respublikamızın tanınmış pedaqoq jurnalistlərindən Cahangir Məmmədli, Qulu Məhərrəmli və Vüqar Zifəroğlunun "Əkinçi" ilə doğan günəşin Milli mətbuatımızı daim isitməsi, Həsən bəy Zərdabi və "Bakinskiy listok" qəzeti və Beynəlxalq jurnalistikada süni intellektin rolu haqqında fikirlərini oxuculara təqdim edirik.

Cahangir MƏMMƏDLİ,
Bakı Dövlət Universitetinin Milli mətbuat tarixi kafedrasının müdiri, professor.

Azərbaycanda "Əkinçi"dən əvvəl də qəzet nəşr olunub, amma milli mətbuatımızın əsası məhz "Əkinçi" ilə qoyuldu. Böyük ziyalımız Həsən bəy Zərdabi öz savadı və beynəlxalq təcrübəyə bələdliliyi ilə dünya klassik mətbuatının fəaliyyət prinsiplərinə cavab verən elə bir qəzet yaratdı ki, onun yaradıcılıq prinsipləri bu günümüz üçün də aktualdır.

Bu il 150 yaşı tamam olan mətbuatımız çox çətin bir tarixi yol keçib. Rusiya imperiyasının senzura qadağaları mətbuatımızın inkişafına mane olsa da, "Kaspi" qəzetinin yaranmasından tutmuş 1920-ci illərdə "Füyuzat" jurnalistika məktəbinin, "Molla Nəsrəddin" ədəbi-satirik məktəbinin yaranmasına, "Həyat", "İrşad", "Açıq söz" kimi mətbuat orqanlarının meydana çıxmasına əngəl törədə bilmədi. Bir az keçdi və Şərqdə ilk demokratik dövlət - Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Xalq Cümhuriyyəti qısa ömür sürsə də, onun Mətbuat haqqında nizamnaməsi, xüsusilə "Azərbaycan" qəzeti ölkəmizdə demokratik mətbuatın ən bariz nümunəsi kimi bu günümüz üçün də böyük bir məktəbdir.

Mətbuatın özəl sektorunun yaranması media sisteminin inkişafına ciddi zəmin yaratmışdır. Ümumiyyətlə, mətbuatın tarixən üç əsas funksiyası formalaşmışdır: məlumatlandırmaq, maarifləndirmək, əyləndirmək. Amma bu üç funksiyanın hər birində maarifləndirmək ön plandadır. Həsən bəy Zərdabi demişdir ki, hər bir vilayətin qəzeti gərək o vilayətin aynası olsun. H.B.Zərdabi "Əkinçi"ni məhz bu prinsip əsasında yaratmış və millətin savadlanmasına xidmət etmişdir. Bununla yanaşı, Mirzə Cəlil "Molla Nəsrəddin" jurnalı ilə mövhumat içində boğulan milləti oyatmışdır. Xalq Cümhuriyyəti dövründə yaranan "Azərbaycan" qəzeti dövlətçilik prinsiplərini formalaşdırmışdır.

Daha bir növbəti mərhələ sovet dövrü ilə bağlıdır. Çar senzurası bu zaman "Qlavlit" adı ilə yenidən müstəqil mətbuatın qəniminə çevrildi. Lakin bu dövrdə də Azərbaycan mətbuatı inkişafdan qalmadı. Mətbuatın tipoloji sistemi yarandı. Ədəbi dilimiz mətbuat üsulu formalaşdı. Klassik jurnalistikamızın Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli, Ömər Faiq Nemanzadə və Məhəmməd Əmin Rəsulzadə məktəblərinə söykənən mətbuatımız çoxsaylı ustad jurnalist yetişdirdi.

Ulu öndər Heydər Əliyevin demokratik mətbuat konsepsiyası bu gün mediamızın inkişafına təkan verən əsas faktordur. Azərbaycanda milli mətbuatın inkişaf tarixi, peşəkar medianın yaranması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1969-cu ilin 14 iyulunda ümummilli lider Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsi mətbuatın inkişafında əsaslı dönüş yaratdı. Məhz həmin dövrdə istər ədəbi, istərsə də mətbu sahədə yüksək irəliləyiş nəzərə çarpırdı. Azərbaycan dilində qəzetlərin sayı artırıldı, televiziyada Azərbaycan dilində verilişlərin yayımı genişləndirildi. Ulu öndər Heydər Əliyev Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində ixtisaslı kadrların hazırlanması istiqamətində əhəmiyyətli addımlar atdı.

Yeniləşən dünyada təbiidir ki, informasiyanın ötürücü vasitələri də yenilənir. Bugünkü müstəqil azad mətbuatımız televiziyalarımız, internet saytlarımız milli maraqlarımızı müdafiə etmək, milli mədəniyyətimizi, mənəvi dəyərlərimizi qorumaq üçün vacibdir. Qalib dövlətin işğaldan azad olunmuş torpaqlarını dirçəltmək, düşmənə qarşı həmişə hazır olmaq kimi prinsiplər maarifçilik missiyasının tərkib hissəsidir. Müstəqil Azərbaycanın Milli Məclisində qəbul edilən ilk qanun KİV (Kütləvi İnformasiya Vasitələri) haqqında oldu. Ulu öndərin müəllifi olduğu və 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası senzuranı ləğv etdi. Söz və mətbuat azadlığı konstitusion hüquq qazandı. 1998-ci il 6 avqust tarixli Fərman Azərbaycan mətbuatının inkişaf tarixində əsas hadisə idi. Məhz bu Fərmanla Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edildi, hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərman və bütün informasiya yayımı üzərində nəzarətin tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli sərəncam qüvvədən düşdü.

Xüsusi qeyd etməliyəm ki, Prezident İlham Əliyevin hakimiyyətə gəlişi ilə müstəqil mediamız daha da təkmilləşmiş və inkişaf etmişdir. Azərbaycan mediası diqqət və qayğı ilə əhatələnmişdir. Prezidentin bu sahədə atdığı addımlar açıq şəkildə göstərir ki, nəşrlərin inkişafı, jurnalistlərin sosial rifahı, söz azadlığının təmin olunması və informasiya məkanının genişlənməsi dövlət siyasətinin əsas prioritetlərindəndir. Dövlət başçısı dəfələrlə vurğulayıb ki, Azərbaycan mediası ölkənin ictimai-siyasi, mədəni və informasiya həyatında mühüm rol oynayır. Bu gün milli media fəallığı ilə seçilir, ölkədə və dünyada baş verən hadisələri operativ və obyektiv işıqlandırmağa çalışır. Prezidentin həyata keçirdiyi islahatlar sübut edir ki, o, demokratik cəmiyyətin qurulmasında medianın rolunu yüksək qiymətləndirir. Jurnalistlərin sərbəst fəaliyyəti, fikirlərini açıq şəkildə ifadə etmələri, cəmiyyətin maariflənməsi və informasiya məkanının inkişafı daim diqqət mərkəzindədir. Bu isə onu göstərir ki, Prezident İlham Əliyev güclü və müstəqil medianın formalaşmasına xüsusi önəm verir. Medianın İnkişafı Agentliyinin hazırladığı, geniş müzakirədən keçirilən, Milli Məclisin qəbul etdiyi, Prezident İlham Əliyevin imzaladığı "Media haqqında" Azərbaycan Respublikasının Qanunu bütün parametrləri ilə ölkəmizdə söz və mətbuat azadlığını təmin etmişdir. Çağırışlar əsasən bundan ibarətdir ki, bu gün bəzi Qərb ölkələri Azərbaycanın Qarabağ qələbəsini, sürətli iqtisadi inkişafını, Prezidentimizin uğurlu diplomatiyasını gözdən salmaq istəyirlər. Belə bir məqamda jurnalistlərimiz ayıq olmalı, milli maraqlarımızı qorumalı, vacib məqamlarda bunu nümayiş etdirməlidirlər. İnternetin meydana çıxması, informasiya texnologiyasının sürətli inkişafı mediaya bütün dünyada meydan oxumaqdır. Bu, qaçılmaz bir həqiqətdir. Ənənəvi mediaya daha çox yaşlı nəsil müraciət edir. Cavanlar informasiyanı birbaşa sosial şəbəkələrdən, saytlardan alırlar. Amma bu, mənbələrdə maariflənmək o qədər də güclü deyil. Məsələn, bugünkü yerüstü ənənəvi televiziyaları hələlik internet kanalları üstələyə bilmir. Hələ 6-7 il bundan əvvəl "Vaşinqton Post" qəzeti vəd etmişdi ki, çox yaxın zamanda, yəni 2018-ci ildən etibarən ancaq elektron variantda fəaliyyət göstərəcək. Lakin bu, baş tutmadı. Çünki təcrübə göstərdi ki, qəzet sadəcə reklam bazarında uduzur. Deməli, ənənəvi media gərək elə formatlara keçsin ki, oxucular onu tərk etməsin.

Xüsusi qeyd edim ki, müstəqilliyimizin ilk illərində jurnalist yaradıcılığının Qərb modeli bizə çox maraqlı göründü. Bir az keçdi və məlum oldu ki, Qərb jurnalistikasının demokratik prinsipləri iflasa uğrayıb. İndi bizim yolumuz bir, məktəbimiz birdir. Klassik Azərbaycan jurnalistikası: Mirzə Cəlil, Üzeyir bəy, Ömər Faiq məktəbləri...

Qulu MƏHƏRRƏMLİ,
filologiya elmləri doktoru, professor.

Milli mətbuatımızın banisi, böyük mütəfəkkir və maarifçi-demokrat Həsən bəy Zərdabinin 150 il əvvəl əsasını qoyduğu "Əkinçi" qəzeti xalqın gözünü açmaq, onu qəflət yuxusundan oyatmaq, elm-təhsili yaymaq, savadlanmaq, milli maarif və mədəniyyəti inkişaf etdirmək sahəsində əhəmiyyətli addımlar atmışdır. Lakin "Əkinçi"yə qədər də Zərdabinin mətbuatla təması olmuşdur. O, Bakıda rus dilində çıxan "Bakinski listok" adlı qəzetlə əməkdaşlıq etmiş, ilk mətbu məqaləsi də elə həmin qəzetin 26 fevral 1872-ci il tarixli nömrəsində işıq üzü görmüşdür.

Azərbaycan ictimai fikir tarixində parlaq yer tutan, milli teatrın və milli mətbuatın banisi, həmçinin ilk xeyriyyə cəmiyyətinin yaradıcısı olan Həsən bəy Zərdabi XIX əsrin ikinci yarısından başlayan milli quruculuq işinin önündə getmiş fenomenal tarixi şəxsiyyətdir. Azərbaycanda çağdaş ictimai-fəlsəfi düşüncənin və modern ədəbiyyatın əsasını qoymuş M.F.Axundovdan sonra H.B.Zərdabi cəmiyyətin sosial təşkilatlanması yönündə əməli fəaliyyət göstərmişdir. O, çoxşaxəli ictimai fəaliyyəti, zəngin ədəbi-publisistik və elmi yaradıcılığı, böyük millət sevgisi ilə Azərbaycan türkləri arasında ilk dəfə "ruslaşdırma siyasəti cihazlarını sezmiş, milli mədəniyyətdən uzaqlığın, onun tərəqqisinə laqeydliyin, dini cəhalət pərdəsinin rus siyasətinin ana xəttini təşkil etdiyi qənaətinə gəlmiş və bu pərdəni yırtmaq üçün mücadiləyə başlamışdır" (prof. Əhməd Cəfəroğlu). Bu mücadilədə xalqı maarifləndirmək, kasıb uşaqlarını oxutmaq, teatr açmaq, qəzet nəşr edib yaymaq məsələləri ön planda dayanmışdır.

Çar Rusiyasının keçilməz bürokratiyası və sərt senzura şəraitində Həsən bəy Zərdabi ana dilində ilk milli qəzetin - "Əkinçi"nin nəşrinə nail ola bilmişdir. Bu qəzetin nəşri təkcə Qafqazda deyil, "bütün Rusiya müsəlmanları arasında geniş əks-səda doğurmuşdur. Bu münasibətlə İdil-Ural, Krım, Sibir kimi yerlərdən redaksiyanın ünvanına təbrik məktubları və yazılar göndərilmişdir". Qəzetin həmin coğrafiyalarda da yayılması oxucuların sayının artması demək idi. O dövrün məşhur "Qafqaz" nəşrində Rusiyada ilk türk qəzeti haqqında məlumatın yayılması, Zərdabinin və həyat yoldaşının maarifçilik fəaliyyətinin işıqlandırılması, "Əkinçi"nin Krıma və Türküstana qədər gedib çıxması barədə məlumatlar da oxucu sayının artmasına təkan verirdi.



Xalqı qəflət yuxusundan ayıldıb onu maarifləndirmək missiyasını boynuna götürmüş "Əkinçi" qəzeti XIX əsrin sonlarına yaxın Azərbaycan mühitinin, mövcud cəmiyyətin və ictimai münasibətlərin güzgüsü idi. Baş verən əhəmiyyətli hadisələr qəzet səhifələrində öz əksini tapırdı. Bu mənada "Əkinçi" həm də o dövrün tarixi proseslərini öz səhifələrində əks etdirən mötəbər salnaməçi rolunu yerinə yetirirdi. Təbii ki, qəzetdə "çar üsuli-idarəsinin tənqidinə, baş verməkdə olan fəhlə hərəkatının, sosial münaqişələrin təsvirinə, milli azadlıq hərəkatının işıqlandırılmasına xüsusi yer verilmişdir. Lakin bunlar ayrı-ayrı xəbərlər, eyhamlar şəklində verilirdi". Qəzet gərək "vilayətin aynası olsun" deyən H.B.Zərdabi "Əkinçi"nin nəşri ilə millətə ictimai göz vermiş, ilk növbədə xalqa milli tərəqqinin yolunu göstərmişdir. "Biz elmə, biliyə yiyələnib irəli getməsək, başqalarının qulu olacağıq" deyə soydaşlarına çağırış edən Zərdabi xalqı oyanışa, yeniliyə boylanıb Avropaya baxmağa, dövrün tərəqqi etmək çağırışlarına cavab verməyə səsləmişdir.

Ağır çar senzurası şəraitində iki ildən bir qədər çox fəaliyyət göstərən "Əkinçi" xalqın gözünü açmaq, onu qəflət yuxusundan oyatmaq, elm-təhsili yaymaq, savadlanmaq, milli maarif və mədəniyyəti inkişaf etdirmək sahəsində əhəmiyyətli addımlar atmışdır. Bu addımlar məhz H.B.Zərdabinin fədakarlığı sayəsində mümkün olmuşdur. Təsadüfi deyil ki, milli şüurun oyanışı və ictimai fikir tarixini araşdıran alimlər bu məsələdə "Əkinçi" qəzetini və Zərdabinin milli-ictimai fəaliyyətini xüsusi bir mərhələ kimi öyrənirlər.

XVIII əsrin axırlarından başlayaraq çar Rusiyasının Qafqazda işğal siyasətini genişləndirməsi, cənuba doğru irəliləyərək yeni ərazilər ələ keçirməsi Azərbaycan xanlıqlarının müstəqilliyini itirməsi ilə nəticələnmişdi. 1813-cü ildə "Gülüstan müqaviləsi"nin imzalanması isə bu tarixi əraziləri İranla Rusiya arasında ikiyə bölmüşdü. Rus təbəəliyini qəbul etmiş əhali ona tanış olmayan xeyli ciddi siyasi və sosial-humanitar problemlərlə üzləşmişdi.

Rusiyanın Qafqazda möhkəmlənməsi regionda yeni siyasi və hərbi vəziyyət yaratmışdır. Bütövlükdə müsəlman dünyasının ümumi tənəzzülü fonunda baş vermiş bu proseslər tarixən müstəqil dövlətə və zəngin ədəbi-mədəni irsə malik olmuş Azərbaycan xalqı üçün əsl milli faciə idi. Çünki vətən bölünmüş, milli qüvvələr parçalanmış, sabaha inam zəifləmiş, ümidsizlik çoxalmış, siyasi-iqtisadi şərait olduqca ağırlaşmışdı. Rus işğalından sonrakı illərdə Azərbaycanın münbit torpaqlarına, o cümlədən Qarabağa və ətraf qəzalara İrandan erməni ailələrinin köçürülməsi, bu vəziyyəti daha da kəskinləşdirmişdir. Sənaye şəhərinə çevrilməkdə olan Bakı əhalisi rusların və ermənilərin hesabına xeyli dəyişmişdi. Şəhərdə xalqın ruhunu qidalandıran, onun mənəvi dəyərlərini yaşada biləcək mədəni mühit solğunlaşmışdı. Həmin dövrdə Bakıda əsasən üç icma: yerli müsəlmanlar (azərbaycanlılar), ruslar və ermənilər məskunlaşmışdı. Nisbətən fəal olan rus icması tezliklə öz mətbu orqanını yaratmışdı. Yəni çar Rusiyasının ucqarı sayılan Azərbaycanda ilk dövri mətbuat nümunəsi olan "Bakinski listok" qəzeti 1871-ci il martın 6-dan nəşrə başlamışdı (qəzetin buraxılması üçün rəsmi icazə 1870-ci il dekabrın 31-də verilmişdi). Həftədə bir dəfə nəşr edilən qəzetin naşiri və redaktoru H.B.Zərdabinin müəllim həmkarı, Bakı Realnı Gimnaziyasının alman əsilli əməkdaşı Xristian Sink idi. Belə ehtimal etmək olar ki, "Əkinçi" ideyasının gerçəkləşməsində Zərdabinin müəllim dostu X.Sink və onun qəzet ilə sıx təması da müəyyən rol oynamışdı. Burada bir mühüm məqam da ondan ibarətdir ki, X.Sink qəzetində tatar *(türk - Q.M.)* dilində yazılar verilməsinə də icazə almışdı. Amma bir çox səbəblərdən, o cümlədən qəzetin çap olunduğu "Erməni insanseverlər cəmiyyəti"nin mətbəəsinin "müsəlman şrifti" və tatar dilində material çapından imtina etməsi ucbatından öz məqsədinə nail ola bilməmişdi.

"Bakinski listok" oxuculara "ictimai-siyasi və ədəbi" nəşr kimi təqdim olunurdu. XIX əsrin 70-ci illərinin özünəməxsus salnaməsi sayılan qəzetin iki il ərzində 50 nömrəsi (1871-ci ildə 17, 1872-ci ildə 23) çapdan çıxmışdır. Birinci il dörd səhifə, ikinci il isə iki səhifə həcmində və A-3 formatında çap edilmişdi. Təəssüflər olsun ki, Bakıda çıxmış bu ilk dövri mətbuat nümunəsi Azərbaycanda saxlanılmayıb, amma elmi kitabxanalarda və biblioqrafik qeydlərdə qəzet haqqında ümumi bilgi verilib. Sovet dövründə mətbuat tariximizi araşdıran tədqiqatçıların bu qəzetin nüsxələrini əldə etmək cəhdi uğursuz olub. Ona görə də uzun illər bu qəzetin fəaliyyəti və materialları haqqında yalnız ehtimallarla danışılmışdır.

Zərdabinin "Bakinskiy listok"da "Həsən bəy Məlikov" imzası ilə verilmiş "Bakı salnaməsi. 26 fevral" adlı məqaləsi iki hissədən ibarətdir. Birinci hissədə Bakının mədəni mühiti və müsəlman icmasının bu mühitə nə verməli olduğu barədə danışılır. İkinci hissədə isə imkansız şagirdlərə kömək məqsədilə xeyriyyə cəmiyyətinin yaradılmasının vacibliyindən bəhs edilir. Xeyriyyə cəmiyyətini açmaqda H.B.Zərdabinin əsas məqsədi qabiliyyəti olan kasıb övladlarını gimnaziyalara cəlb etmək, onlara elm, təhsil öyrətmək, millətin rifahı naminə gələcəkdə onlardan istifadə etmək idi. Əsas düşüncəsi bu milləti ayıltmaq, onu cəhalətdən, nadanlıqdan xilas etmək, xalqın şüurunu, beynini, düşüncəsini işıqlandırmaq olan böyük maarifçi sonralar Xeyriyyə cəmiyyətini yaratsa da, ora kifayət qədər maliyyə cəlb olunmaması səbəbindən onu bağlamağa məcbur oldu. Amma daim millət qayğısını çəkən H.B.Zərdabi maarifçilik missiyasına ara vermədi. Çünki o belə hesab edirdi ki, bizim zəmanəmiz elm zəmanəsidir. Maarifdən, elmdən məhrum olan xalq işıqdan məhrumdur. Təhsil almaq, elm öyrənmək Qafqaz müsəlmanlarına xüsusən vacibdir. Məhz bu missiyanı yerinə yetirmək üçün o, əvvəlcə milli teatrın əsasını qoydu, daha sonra isə zülmətdə işıq kimi alovlanan "Əkinçi" qəzetini yaradıb xalqı maarif yoluna çıxardı. Bu qəzet Azərbaycan xalqının milli oyanışında və yeni ziyalı nəslinin yetişməsində həlledici rol oynadı.

Vüqar ZİFƏROĞLU,
BDU-nun Jurnalistika fakültəsinin dekanı, Mətbuat Şurasının sədr müavini.

XIX əsrin ortalarında maarifpərvər ziyalıların fədakarlığı ilə əsası qoyulan milli mətbuat "Əkinçi"dən başlayaraq istiqlal və azadlıq uğrunda söz savaşına çevrildi. Çar senzurasının sərt qaydalarına baxmayaraq, Həsən bəy Zərdabinin cəsarəti ilə işıq üzü görən bu qəzet millətin oyanışına zəmin yaratdı, xalqın savadlanmasına və özünüdərkinə xidmət etdi. Sonrakı dövrlərdə "Füyuzat", "Açıq söz", "Həqiqət", "Kaspi" kimi nəşrlər milli şüurun formalaşmasına töhfə verərək mətbuatı informasiya mənbəyi yox, ideoloji savaş meydanına çevirdi.

Azərbaycan mətbuatının tarixi, təkcə inkişaf yox, həm də mübarizə tarixidir. Sovet senzurasının ağır illərində mətbuat təbliğatın alətinə çevrilsə də, istiqlal eşqi heç vaxt sönmədi. "Səhər", "Odlar yurdu", "Azərbaycan", "Ayna-Zerkalo" kimi nəşrlər XX əsrin 90-cı illərində cəmiyyətin düşüncəsini formalaşdıraraq azad sözə susamış dövrdə mayaka çevrildi.

Bu gün isə dünya tamamilə yeni bir informasiya erasına qədəm qoyur. Süni intellekt və rəqəmsal texnologiyalar jurnalistikanın ənənəvi sərhədlərini aşaraq medianın istehsal və istehlak formasını dəyişir. Lakin dəyişməyən əsas dəyər sözün gücüdür! Necə ki, "Əkinçi"nin ilk sətirləri xalqı oyatdı, "Füyuzat" milli özünədərkdə önəmli cığır açdı, "Molla Nəsrəddin" satira ilə həqiqətləri üzə çıxardı, bu gün də jurnalistikanın missiyası doğrunu göstərmək, cəmiyyətə xidmət etməkdir.

Bəs bu yeni dövrdə Azərbaycan mətbuatı hansı yolla gedəcək? Ənənəvi mətbuat süni intellektin yaratdığı informasiya seli qarşısında necə dayanacaq? Yoxsa, Zərdabinin başladığı maarifçilik missiyası yeni texnologiyalarla davam edəcək? Tarix şahiddir ki, azərbaycanlı jurnalistlər həmişə çətinliklərə sinə gərib, xalqın səsini dünyaya çatdırmağı bacarıblar. Bugünkü və gələcək jurnalistikanın əsas vəzifəsi də budur - həqiqətə xidmət etmək, informasiya xaosunda işıq saçmaq!

Müasir texnologiyaların sürətlə inkişaf etməsi jurnalistika sahəsində də köklü dəyişikliklərə səbəb olub. Xüsusilə, süni intellektin beynəlxalq jurnalistikada istifadəsi informasiya istehsalı, yayımı və istehlakı prosesini yeni mərhələyə daşıyıb. Media sahəsində texnoloji inqilab jurnalistikanın gələcəyini köklü şəkildə dəyişməkdədir. Süni intellekt, rəqəmsallaşma, böyük data analitikası və digər texnologiyalar jurnalistikanın ənənəvi üsullarını yenidən formalaşdırır.

Müasir günümüzdə süni intellekt beynəlxalq jurnalistikada bir çox sahədə istifadə olunur. Xəbər agentlikləri avtomatlaşdırılmış sistemlərdən istifadə edərək maliyyə, idman və hava proqnozu kimi sahələrdə qısa zamanda məqalələr hazırlayırlar. Məsələn, "Associated Press" və "Bloomberg" kimi nüfuzlu media qurumları süni intellekt vasitəsilə avtomatik xəbər yazan sistemlərdən istifadə edir.

Bundan başqa, fakt-yoxlama və dezinformasiyanın aşkarlanması süni intellektin vacib funksiyalarındandır. Müasir media məkanında dezinformasiyanın yayılma sürətinin artması jurnalistikanı ciddi çağırışlarla qarşı-qarşıya qoyub. "Google Fact Check Tools" və digər fakt-yoxlama alətləri süni intellekt vasitəsilə yalnış informasiyaların mənbəsini araşdırır və oxuculara etibarlı məlumat təqdim etməyə kömək edir.

Süni intellektin beynəlxalq jurnalistikadakı rolu sadəcə kontent istehsalı ilə məhdudlaşmır. O, eyni zamanda media monitorinqini effektiv şəkildə həyata keçirməyə imkan yarıdır. Jurnalistlər süni intellekt alətlərindən istifadə edərək ictimai rəyi analiz edir, sosial medianı izləyir və qlobal hadisələrin gedişatını öncədən proqnozlaşdıra bilirlər.

Süni intellekt həm də auditoriyanın maraqlarına görə fərdiləşdirilmiş xəbər yayımına imkan yaradan alqoritmlərlə təchiz olunub. "Google News" və "Apple News" kimi platformalar oxucuların xəbəroxuma və axtarış verənlərinə əsaslanaraq onlar üçün ən aktual və maraqlı xəbərləri sərgi edir.

Buna baxmayaraq, süni intellektin jurnalistikada istifadəsi bir sıra etik və praktiki problemlər yarada bilir. Onlardan biri obyektivlik məsələsidir. Süni intellekt alqoritmləri insan tərəfindən proqramlaşdırıldığı üçün onlar da qərəzli ola bilər və bəzi informasiyaları şüurlu şəkildə səhv analiz edə bilər. Bu isə informasiya manipulyasiyaları üçün geniş imkanlar yaradır.

Bundan başqa, jurnalistikanın əsas özəlliklərindən biri olan araşdırma və tənqidi düşüncə süni intellekt tərəfindən tam icra edilə bilmir. Süni intellekt məlumatları sıralaya və əmələ gətirə bilsə də, orijinal araşdırmalar aparmaq, jurnalist etikası çərçivəsində obyektiv yanaşma təmin etmək kimi əsas bacarıqlara sahib deyil.

Şübhəsiz ki, bu dəyişikliyə uyğunlaşmaq və jurnalistikanın davamlılığını təmin etmək üçün həm fərdi jurnalistlər, həm də media quruluşları yeni yanaşmaları qəbul etməlidirlər. Bu gün VR (Virtual Reality) və AR (Augmented Reality) texnologiyaları istifadəçilərə hadisələri "yerindəcə" yaşamaq imkanı verir, immersiv jurnalistikanı inkişaf etdirir. İstəsək də, istəməsək də sosial media jurnalistikada həm mənbə, həm də platforma kimi çıxış edir. Əsas xəbər hadisələri sosial mediada başlayır. Jurnalistlər mürəkkəb sosial, iqtisadi və siyasi problemləri anlamaq üçün böyük data bazalarını analiz edirlər, məlumatların daha aydın çatdırılması üçün interaktiv qrafiklərdən və vizual elementlərdən yararlanırlar. Təbii ki, bütün bu dəyişikliklərə hazır olmaq çox önəmlidir.

Jurnalistlər süni intellekt alətlərindən, məlumat analitikası proqramlarından və avtomatlaşdırma texnologiyalarından istifadə etməyi öyrənməlidirlər. Media təşkilatları texnoloji startaplarla əməkdaşlıq qurmalı, innovativ alətləri öz iş axınlarına inteqrasiya etməlidirlər. Bir də təbii ki, davamlı təhsil. Jurnalistlər üçün texnoloji yeniliklərə dair davamlı təhsil proqramları təşkil olunmalıdır. Bu proqramlar həm akademik qurumlar, həm də media təşkilatları tərəfindən dəstəklənə bilər. Nəzərə almaq lazımdır ki, mediada texnoloji yeniliklər jurnalistləri monoton işlərdən azad edərək, daha yaradıcı və dərin analitik işlərə fokuslanmağa imkan verəcək. Eyni zamanda jurnalistikanın həqiqəti axtarmaq və cəmiyyətə təsir göstərmək mahiyyəti dəyişməyəcək. Bu səbəbdən, yeni texnologiyalara uyğunlaşmaqla yanaşı, ənənəvi jurnalistikanın əsas prinsipləri də qorunmalıdır.

Süni intellekt beynəlxalq jurnalistikanı dəyişdirir və daha səmərəli, sürətli xəbər yayımına imkan yaradır. Lakin bu texnologiyanın etik istifadəsi və insan jurnalistlərin rolu mühüm olaraq qalır. Gələcəkdə jurnalistika sahəsində süni intellekt və insan əməyi bir-birini tamamlayan ünsürlər olaraq varlıqlarını qoruyacaqlar. Jurnalistikanın mahiyyəti tənqidi düşüncə və etik prinsiplər üzərində qurulduğu üçün süni intellekt insan jurnalistləri tam əvəz etmək əvəzinə, onların işini asanlaşdıran bir vasitə olaraq qalacaq.

Hazırladılar:
Ləman TƏHMƏZ,
Tacir SADIQOV,
Nurlan ABDALOV,
"Respublika".